# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
XÜSUSİ BURAXILIŞ / 2022

BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİ 8

## 5-9 OKTYABR 2022

BAKI EKSPO MƏRKƏZİ




Təşkilatçı

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Təşkilati Dəstək

ceo caspian event organisers

Tel.: +994 12 404 1000
+994 55 224 1000
E-mail: bookfair@ceo.az

www.bakubookfair.az

Bakikitabsergi #Bookfair


BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİ 8

5-9 OKTYABR 2022

BAKI EKSPO MƏRKƏZİ

Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
XÜSUSİ BURAXILIŞ / 2022






*Əziz kitabsevərlər!*

*Sizə təp-təzə bir xəbərim var. 5-9 oktyabr tarixində Bakı Ekspo mərkəzində, VIII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası, yəni möhtəşəm kitab bayramı keçiriləcək. Siz beş gün boyunca endirimli qiymətlərlə, hədiyyəli gözəl tərtibatlı kitablar alacaq, yazarlar ilə görüşəcək, həmçinin, "Göy qurşağı" uşaq jurnalının xüsusi buraxılışını əldə edəcəksiniz.*

*Yəqin ki, ötən il keçirilən sərgini xatırlayırsınız? Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuşdu. Kitabxananın rəngarəng pavilyonunda Azərbaycan və xarici uşaq yazarlarının əsərləri, Brayl əlifbası ilə nəşr olunan kitablar, həmçinin jest dilinə tərcümə edilən uşaq ədəbiyyatı nümayiş olunurdu. Yadınıza düşdü?! Elə isə gəlin, birlikdə həmin tarixi anlara nəzər salaq.*






















# Həkan-həkan içində, Qoz girdəkan içində.

Dostlar, heç bilirsiniz məni hara dəvət etmişdilər? Türkiyənin ən qədim, yaşıl şəhəri Bursaya. Böyükşəhər Bələdiyyəsi Muzeyləri tərəfindən təşkil olunan möhtəşəm Nağıl Şənliyinə. Artıq İkinci ildir ki, nağıllara bənzər bu festivala gözəl insanlar diyarı Bursa ev sahibliyi edir. Şəhərin 10 güşəsində, parklarda, çay kənarında, çinar kölgəsində 10 gün 10 gecə tam yüz fərqli nağıllar danışıldı. 7-dən 70-ə qədər Bursanın bütün uşaq və böyükləri festivalın qonağı oldular. Türkiyənin yaxın, uzaq ellərindən, Azərbaycan, İran və Qazaxıstandan gələn nağılçıların üzünə Nağıl məkanlarının qapıları gülərüzlə açıldı. Mən kitabxananın nağıl otağında nə qədər nağıllara qulaq asmışam, amma Nağıl festivalında dinlədiyim nağılları heç eşitməmişdim. Şənliyin keçirildiyi yerlər uşaqları sevindirmək üçün bayram əhval-ruhiyyəsində, nağıllar aləmini xatırladan dizaynla tərtib olunmuşdu. Nağılçılar müxtəlif musiqi alətləri ilə söylədikləri nağıllarla təkcə uşaqları əyləndirmir, onlarda düşünmək, fikir yürütmək bacarığı tərbiyə edir.

Danışanı, dinləyəni, görəni və eşidəni bir araya gətirir, ümid paylayır. Nağıllarda həmişə yaxşılıq, arzu və ümid









qalib gəlir. Nağıllarla böyüyən uşaqlar yetkin olanda ümid, inam və həmrəylik mədəniyyətini yayırlar. Məhz buna görə də nağıllar insanlarla görüşməlidir...

Bizim nağılçımız – Zahirə xanım uşaqlara "Axmaq canavar", "Tıq-Tıq xanım", "Şah və tutuquşu", "Günəşin nağılı", "Cik-Cik xanım", "Cırtdan", "Padşah və xoruz", "Şəngül, Şüngül və Məngül" və s. nağılları danışdı. O nağılları öz səsinin ahəngi ilə elə gözəl danışdı ki, uşaqlar bütün diqqətlərini onun üzərinə yönəldərək, sona qədər nağıla qulaq asdılar. Gəlin, sizə bir sirr açım. Əsil Nağılçı olmağın sirri uşaqlara olan sevgidir. Bax, bu sevgi Zahirə xanımda həddən çoxdur. Odur ki, onun söylədiyi nağılları dinlədikcə, elə hey dinləmək istəyirsən...

Nağıllarsız dünya mümkün deyil. Hər uşaq nağıl eşitmək istəyir. Çünki uşağın nağıl eşitməyə ehtiyacı var. Bu uşaqlarda yaradıcılığa və kreativliyə yol açır. Həm də bizə yeni ideya verir, yeni düşüncə tərzi yaradır.

Hə, əzizlərim! Bursa şəhər bələdiyyəsinin təşkil etdiyi Nağıl festivalı yüzlərlə uşaqları, böyükləri sevindirdi.

## Nağıl deyin körpələrə

Nağıl deyin körpələrə, nağıllarla böyüsün,
Səsinizin sehri ilə, xəyallarla böyüsün.
Dinlədikcə, o sehrli nağılları,
Ağ atlı qəhrəman olub, Qalib olsun yurduna,
Nazlı, gözəl xanım olub, xeyir versin xalqına.
Nağıl deyin körpələrə, nağıllarla böyüsün.
Sevginizlə, qəlbinizlə böyüsün.
Arxasında bir dağ olun, şiş ucları alınmaz dağ,
O dağlara arxalansın, o dağlarla ucalsın.
Nağıllarla böyüyən qorxaq olmaz, aciz olmaz,
Əjdahalarla vuruşda,
Bir nər olar, Şərə qalib, Xeyir olar.
Nağıl deyin körpələrə. Öz səsinlə, nəfəsinlə,
Telefonda mesajla yox, layla deyən dilimizlə.
Nağıllarla böyüyən, xeyirli övlad olar,
Nağıllarla böyüyən, yurduna sahib çıxar.
Elin sevən, xalqın sevən, Əsil vətəndaş olar.
Vətənin hər daşına qurban olum, - deyərlər,
Öz canlarından əziz, Vətənini sevərlər.











*Humayun Sevinc*




# Vətən bağı

Deyirlər zümrüd meşəli Şuşanın nişanəsi olan xarıbülbülün boy atdığı torpağın havasını udan, suyundan içən heç kim xarıbülbülü unutmaz, ondan ayrı yaşaya bilməzmiş. Elə Xan qızı Ağabəyim ağa kimi.

Ağabəyim ağa Cavanşir Şuşanın təməlini qoymuş Pənahəli xanın nəvəsi, Qarabağ xanı İbrahimxəlil xanın qızı idi. Qarabağ xanlarının məskəni Xankəndində dünyaya göz açmış Ağabəyim ağa savadlı, vətənpərvər, incə ruhlu bir insan olub. Gənc yaşlarından elmə, sənətə böyük maraq göstərir, şərq və Avropa dillərini öyrənirdi. Məşhur şair Molla Pənah Vaqifdən dərs almış Ağabəyim ağa, həm də şeirlər yazırdı.

Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum edib uzun mübarizədən sonra Şuşanı ələ keçirir. Şuşanın təbiətinə, füsunkar gözəlliyinə valeh olan şah çox keçmədən sui-qəsd nəticəsində öldürülür və taxta Fətəli şah çıxır.

Yenidən qan tökülməsin deyə, İbrahimxəlil xan Fətəli şahın istəyini qəbul edərək sevimli qızı Ağabəyim ağanın onunla nigahına razılıq verir. Xan sarayında toy məclisi qurulur. Xanəndələr, sazəndələr çalıb-oxuyur, zər-zibalı məxmər, ipək geymiş qızlar Ağabəyim ağanın gözəlliyinin tamaşasına dururlar. Xalılar döşənmiş, zınqırovlu-qotazlı kəcavədə Xan qızı iki yüz atlı ilə Tehrana gəlin köçür.

Ağabəyim ağa sarayın ilk Şahbanusu-baş xanımı seçilir. Dövlət işlərində söz sahibi olur. Krallar, kraliçalar, müxtəlif dövlətlərin səfirləri ilə rəsmi görüşlərdə iştirak edir, məktublaşır. Biliyi, hazırcavablığı ilə böyük hörmət və nüfuz qazanır.

Ağabəyim ağa şahın qızıla qərq olmuş sarayında naz-nemət içində yaşasa da, sonsuz məhəbbətlə bağlandığı Qarabağı, Şuşası üçün çox darıxırdı. Qürbət eldə vətən həsrəti onu bir an belə tərk etmirdi. Qarabağ gözəlinin dərin zəkasına, gözəlliyinə heyran olan Fətəli şah onun könlünü şad etmək üçün soruşur:

-Qarabağa qayıtmaqdan başqa nə arzun varsa, de, yerinə yetirim.

Ağabəyim ağa bir qədər fikirləşdikdən sonra deyir:

-Şah sağ olsun! İzn verin, ata evindən gətirdiyim qiymətli daş-qaşlarımı, cehizlərimi satım.

Fətəli şah təəccüblənir:

-Bəs sənin daş-qaşlarını satdığını bilsələr, mənə nə deyərlər? Xalq içində rüsvay olmarammı?

-Arxayın olun, şahım! Bu sirri ikimizdən başqa heç kim bilməyəcək.

Fətəli şah yenə tərəddüdlə soruşur:

-Bütün var-dövlətim, xəzinəm sənin üzünə açıq olduğu halda, daş-qaşlarını satmaq nəyinə lazımdır?

Ağabəyim ağa şaha arzusunu bildirir:

-Şahım, siz sabahdan saray əhlinə elan edərsiniz ki, xəzinəni mənim üzümə açırsınız. Mən isə daş-qaşlarımı, cehizlərimi xərcləyib, əvəzində özüm üçün bir bağ salmaq arzusundayam. İstəyirəm ki, bu bağda bütün çiçəklər, ağaclar mənim zövqümlə əkilsin. Vətənimin – doğma Şuşamın gül-çiçəyi burada ətir saçsın.

Fətəli şah Ağabəyim ağanın bu arzusuna öz razılığını bildirir. Dünyanın hər yerindən, hətta Şuşadan da mahir bağbanlara istəyini bildirir: "Elə bir bağ salacaqsınız ki, Qarabağda, Şuşada bitən hər bir gül, çiçək, ağac bu bağda bitsin".

Bağbanlar işə başlayırlar. Qarabağdan torpaq, cürbəcür ağaclar, bitkilər gətirilir, möhtəşəm bir bağ salınır. Xan qızının arzusu ilə bağın adını "Vətən Bağı" qoyurlar. Vaxt-vədə yetişir, Ağabəyim ağa bağın seyrinə çıxır. Bağ sanki Qarabağın füsunkar təbiətinin bir parçası idi. Hər yanda gül-çiçək göz oxşayır, quşlar cəh-cəh vururdu. Lakin Ağabəyim ağa nə qədər axtarırsa, bağda sevimli xarıbülbül gülünü tapa bilmir. Nə qədər edirlərsə, xarıbülbül "Vətən Bağı"nda bitmir ki, bitmir. Ürəyi Vətən həsrəti ilə döyünən dərdli şairə nisgilini belə dilə gətirir:

***"Vətən bağı" al-əlvandır,***
***Yox içində Xarıbülbül.***
***Nədən hər yerin əlvandır,***
***Köksün altı, sarı bülbül!***

***Səhərin gülşən çağında,***
***Nə gəzirsən bağı, bülbül?!***
***Oxudun, ağlım apardın,***
***Oldun mənə yağı, bülbül!***

***Bülbül, sən nalə çəkərsən,***
***Göz yaşın gilə tökərsən,***
***On bir ay cəfa çəkərsən,***
***Bir ayı da zarı, bülbül!***

***Bülbül, geyibsən al yaşıl,***
***Qolların boynumdan aşır.***
***Ağlamaq mənə yaraşır,***
***Qoy ağlayım, barı, bülbül!***

Ağlı, kamalı, xeyirxah əməlləri ilə hamının sevgisini qazanan Ağabəyim ağa ömrünü doğma Qarabağını, xarıbülbülünü görmədən qürbət eldə başa vurdu.

Xarıbülbül Vətən sevgisinin, Qarabağın, onun döyünən ürəyi olan Şuşanın rəmzinə çevrildi.

***Vətən bağı al-əlvandır,***
***Ətrin gəlir, Xarıbülbül!***



ƏZİZ DOSTLAR!

Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

Yaxşı kitab mehriban bir dost kimi yaxşı fikirlər və biliklər ilə dünyagörüşümüzü, düşüncəmizi zənginləşdirir. Kitablarla vaxt keçirdikdə özümüzü tək hiss etməyimiz mümkün deyil.

Yaxşı kitablar qiymətli xəzinədir. Böyük şəxsiyyətlərin yazdıqları kitablar bizə daha yaxşı insan olmaq üçün kömək edir və bizi ruhlandırır. Kitablar, həmçinin bizə cəmiyyətə ən yaxşı şəkildə necə xidmət edə biləcəyimizi öyrədir.

Kitab oxumaq tək qaldığımız zaman vaxtımızı səmərəli keçirməyimiz üçün ən yaxşı üsuldur. Biz özümüzü rahat hiss edə bilmək üçün də kitab oxuya bilərik.

# KİTABLAR ƏN YAXIN DOSTUMUZDUR



Kitablar ən yaxın dostlarımızdır, çünki həyatda mükəmməl addımlar atmağımız üçün bizə ilham verirlər və bizə uğursuzluqlarımızdan qurtulmağa kömək edirlər. Oxuduğumuz kitablardan biz çox şey öyrənirik. Kitablar yaxşı və ya pis ola bilər. Dostlarımızı seçdiyimiz kimi, onları seçmək də bizim əlimizdədir. Yaxşı kitablar oxumaq bizi yaxşı, pis kitablar oxumaqsa bizi pis insana çevirə bilər. Eynən dostluq etdiyimiz insanlar kimi.

Kitablarımız çətin zamanlarımızda, həyatımızın ən çətin günlərində hər zaman yanımızda olurlar. Kitablar bizə həyatda gözəl şeylərin arzusunda olmağı, ümidli olmağı öyrədir. Müsbət yönlü düşüncə və dəyərlərdə yaşamağımıza kömək olur. Bəzi insanlar təbiəti, bəziləri isə kitabları sevir. Kitablar bizim təbiətdəki yol xəritəmizdir. Bir kitabın hər səhifəsi insanın ən yaxşı və müdrik fikirlərindən ibarət qeydlər toplusudur.

Gəlin, kitabla dost olaq!

**Yella Lepman:**
**"Siz uşaqlara kitab verin, onlara qanad vermiş olarsınız"**






# Muğam

## DÜNYASINDAN DAMLALAR

*"Biz muğama dönə-dönə qayıdırıq. O artıq bizim həyatımızın bir hissəsi deyil, o bizim özümüzdür."*

*Mehriban Əliyeva*
*UNESCO və ISESCO-nun xoşməramlı səfiri*

Muğamın tarixi çox qədimdir. Şərq musiqisinin möhtəşəm sənət abidəsi olan muğamın yaranmasını alimlər hələ keçən minilliyə, islamaqədərki dövrə aid edirlər. Onun köklərini zərdüştiliklə bağlayırlar. Muğam sözünün mənası da Allah tərəfindən göndərilən musiqi kimi izah olunmuşdur. Muğamın İlahinin qüdrətilə insanların ruhunu təmizləməsi, saflaşdırması fikri də söylənilir. Təsadüfi deyil ki, qədim dövrün alimləri insanları muğam sədaları ilə müalicə edirdilər. Muğamları planetlərlə əlaqələndirirlər: "Nəva" muğamı - Ay planetinə, "Busəlik" - Merkuri, "Rast" - Venera, "Əraq" - Günəş, "Üşşaq" - Mars, "Zirəfkənd" - Yupiter, "Rəhavi" - Saturn planetinə uyğundur.

Muğam təkcə milli sənət növü deyil. O, hər bir azərbaycanlının qanında axan genetik koddur. Muğam - əsrarəngiz bir aləmdir, sehrdir, ruhumuzu vətənə məhəbbət, təbiətin ecazkar gözəlliyi ilə qidalandıran ilahi səslərdir. Muğam sədaları və sehrli xalçalarımızın naxışları sirlər xəzinəsindəndir. Muğamın hər çeşidi əsrlər boyu almaz kimi yaranıb, cilalanıb.

Dahi alman bəstəkarı İohann Sebastyan Bax bir çox xalqların musiqi intonasiyalarından məharətlə istifadə edərək gözəl sənət nümunələri yaratmışdır. Bu əsərlərdən biri də orqan musiqi aləti üçün yazılmış re minor«Tokkata və fuqa» əsəridir. O, bu əsərində klassik Azərbaycan muğamı «Bayatı-Şiraz»ın intonasiyalarından məharətlə istifadə etmişdir. Bəs İohann Sebastyan Bax bizim «Bayatı-Şiraz» muğamını harada eşitmişdir? Axı o, ömrü boyu Almaniyadan kənara çıxmamışdır? Belə güman edilir ki, indi olduğu kimi, o vaxtlar da müxtəlif ölkələr arasında ticarət əlaqələri olub. Ola bilsin ki, Almaniyaya gedən tacirlərdən hansısa «Bayatı-Şiraz» muğamını oxuyarkən İohann Sebastyan Bax da onu eşitmişdir. Deməli, dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur. Azərbaycan muğamı, artıq ölkə hüdudlarından kənara çıxmış və bütün dünyanı fəth etmişdir. Bunun rəsmi təsdiqi isə 2008-ci ildə onun YUNESKO-nun şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil edilməsi oldu.




# Zəfər

Mən müharibə haqqında çox eşitmişdim. Ona görə də zəfəri böyük həyəcan və sevinclə qarşıladım. Həmişə atam və nənəm mənə doğma yurdları Ağdam haqqında danışanda gözləri dolurdu. Çünki düşmən onların Ağdamdakı evlərini dağıtmışdı. Həm də təkcə onların yox, bütün qohumlarının və qonşularının da. Nənəmin söhbətlərindəki gözəl Ağdamı görmək istəyirdim. Amma bilirdim ki, artıq o Ağdam yoxdur, onun yerində uçuq-sökük evlər, qurumuş ağaclar və saralmış çöllər var. Müharibənin nə qədər ağır olduğunu da bilirdim. Onun uşaqlara, heyvanlara və gəlinciklərə vurduğu zərbə haqqında “Ağca və Cuppulu” adlı bir hekayə oxumuşdum. Qarabağda yaşayan balaca qız Sürəyya, onun gəlinciyi Cuppulu və sevimli dostu göyərcin Ağca haqqında idi hekayə. Düşmənlər onların kəndini dağıtmış, Sürəyya dağıntılar altında qalmış Cuppulunu itirmiş və kənddən çıxmağa məcbur olmuşdu. Hekayənin sonunda Ağca Cuppulunu dağıntılar arasından çıxardıb, onu Sürəyyaya çatdırmışdı. Hekayənin sonu belə qutarırırdı:”İndi onlar üçü də birlikdə müharibənin bitəcəyi və doğma yurda qayıdacaqları günü gözləyirdilər”. Mən də sevimli hekayənin qəhrəmanları ilə o günü gözləyirdim.

Nəhayət, Zəfər günü gəldi. Mən də hamı kimi sevinirdim. Əllərində bayraq küçələrə çıxan insanların arasında biz də vardıq. Biz zəfərimizi qarşılayırdıq. Çox xoşbəxt idik.

**Bəhruzlu Əzizə**
Bakı Slavyan Universitetinin
Məktəb-Lisey Kompleksi
4-cü sinif



# Bir gecədə böyüyən uşaqlar

27 sentyabr 2020-ci il. Yenə həmişəki kimi səhər açıldı. Amma bu səhər digər açılan səhərlərdən fərqli idi. Mən bunun fərqini bur neçə saatdan sonra hiss etdim. Həmişəki kimi yuxudan oyandım. İndi də xatirimdədir. Bazar günü idi. Səhər yeməyimi yedim. Valideynlərimin üzündə qəribə bir kədər, hüzn gördüm. Amma bunun fərqinə varmadım. Anamdan bazar günü olduğu üçün (adətən bazar günləri mənə oyun oynamaga icazə verirlər) yoldaşlarımla inernet oyunu oynamaq üçün icazə istədim. Amma məlum oldu ki, olkəmizdə internet də dayandırılıb. Məm bunun səbəbini anamdan soruşanda,- “MÜHARİBƏ BAŞLAYIB OĞLUM!”, dedi və kədərli halda otaqdan çıxdı.

Müharibə?

Adətən biz müharibələr haqqında kitablardan, filmlərdən məlumatlı idik. Amma bunun nə dərəcədə dəhşətli olduğunu bilmirdik. Torpaqlarımızın işğal altında olduğunu bilirdim. Amma biz bir sülhsevər dövlət olaraq bu məsələni sülhlə həll etməyə çalışırdıq. Çünki biz müharibə istəmirdik.

O gündən həyatımızın axarı belə dəyişdi. 44 günlük vətən müharibəsi həyatımızda dərin izlər buraxdı. Artıq biz daima cəbhədən gələn xəbərləri gözləyir, ordumuza Allahdan güc- qüvvət arzulayırdıq. Hər an cənab Ali Baş Komandanın çıxışını səbirsizliklə gözləyirdik. Televizorun qarşısında onu diqqətlə dinləyir və ondan təsəlli alırdıq. Şad xəbərlər gəldikcə sevinir, qohum - əqrəbalarımızla bir- birimizi təbrik edirdik.

Bir gün anam işdən çox kədərli gəldi. Məlum oldu ki, anam əvvəl işlədiyi məktəbin hərbi müəllimi Hüseynli Ehtiram müəllim şəhid olub. Bu çox dəhşət idi. Artıq Şuşa uğrunda döyüşlər gedirdi. Hamımız cənab Ali Baş Komandanın xalqa müraciətini gözləyirdik.

Nəhayət o gün gəldi. Artıq strateji əhəmiyyəti olan gözəllər gözəli Şuşamız azaddır! Mən ilk dəfə idi atamın gözlərində yaş gördüm. Bu sevinc göz yaşları idi. Nəhayət biz zəfər çaldıq! Qalib olduq! 30 ilə yaxın işğalda qalan torpaqlarımızı azad etdik. Amma qəlbimizdə bir nisgilimiz oldu. İşğal altında olan torpaqlarımılzı bizə geri qaytaran oğullarımız qayıtmadılar. Şəhidlik zirvəsinə yüksəldilər. Bizim liseyimiz də bu muharibədə bir itki verdi. Liseyimizin riyaziyyat müəllimi Gülarə xanımın oğlu Quliyev Namiq Natiq oğlu Xocavənd uğrunda döyüşlərdə şəhid oldu.

Biz liseydə Gülarə xanımla rastlaşanda, onun ağ saçlarına, kədərli gözlərinə baxanda düşmənə nifrətimiz daha da artır. Gülarə xanımın bizdən istəyi oğlunu xatirələrimizdə, inşalarımızda yaşatmaqdır. Biz buna sadiq qalacağıq. Borcunuz ödənməzdir şəhid anaları, şəhid övladları! Söz veririk ki, sizin övladlarınızın şəhid olduğu torpaqları göz bəbəyimiz kimi qoruyub saxlayacağıq.

Mən 6-cı sinif şagirdi olaraq bütün dünyaya səslənirəm.

Qoy bizim yaşadığımız 44 günlük Vətən müharibəsi dünyada müharibələrə bir son olsun!
Qoy dunyada uşaqlığını yaşamadan müharibə görən ən son uşaqlar biz olaq!

Çünki, biz bir gecədə böyüyən, uşaqlığını yaşamayan uşaqlar olduq. Bizim yaşadığımız müharibə dəhşətləri, Gəncə, Bərdə terroru gözlərimiz qarşısında baş verdi. İndi mən özümü 20-25 yaşlı bir insan kimi hiss edirəm. Müharibə şən, şıltaq uşaqlığımı əlimdən aldı. Mən gözlərim önündə xalqın necə bir yumruq olduğunu görərək böyüdüm.

Mən gözü yaşlı şəhid anaları gördüm. Mən özünü xalqına, Vətəninə həsr edən bir dövlət başçısı gördüm. Mən sevincdən gözləri yaşaran, ürəyi vətən eşqi ilə döyünən bir Ali Baş Komandan gördüm. Mən ata nəsihəti və bu nəsihəti həyata keçirən bir oğul gördüm. Yaşa, var ol, cənab Ali Baş Komandan!

Və təəssüf ki, mən müharıbə gördüm...

**İbrahim Axundov**
12 yaş, Bakı Avropa liseyi

# Şuşa
## Tarix-Diyarşünaslıq Muzeyi

Muzeylər tarixin, ötən əsrlərin müəyyən hadisələrini özündə yaşadan, eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi xəzinə sayılır. Eyni zamanda yerləşdiyi rayon, şəhər, qəsəbə və kəndlərin həyatı və təsərrüfatı, mədəniyyət və incəsənəti haqqında tam təsəvvür yaradır.

2022-ci il - Şuşa ili elan olunan mədəniyyətimizin beşiyi Şuşada da çoxlu muzeylər var idi. Əbəs yerə deyil ki, onu “muzeylər şəhəri” adlandırırdılar. Məsələn, şəhərdəki Tarix-Diyarşünaslıq Muzeyi diyarın keçməkeşli və şanlı tarixinə güzgü tutur, Dərman Bitkiləri Muzeyi təbiətin bir çox sirlərini açır, Üzeyir Hacıbəylinin, Bülbülün ev muzeyləri milli mədəniyyətimizin tanınmış və məşhur simalarının həyat və yaradıcılığını əks etdirirdi. Qapıları şəhərə gələnlərin üzünə həmişə açıq olan Şuşa muzeyləri on minlərlə ziyarətçi və tamaşaçı qəbul edib.

Şuşa Tarix-Diyarşünaslıq Muzeyi 1969-cu ildə fəaliyyətə başlayıb. Muzey ən böyük tarixi eksponat olan Yuxarı Gövhər ağa məscidində yerləşirdi. Burada tarixi keçmişimizdən, dünənimizdən soraq verən 2500-dən artıq eksponat nümayiş etdirilirdi. Şəhərin tarixi ilə bağlı olan bir çox əşyalar, xüsusən, 1795-ci ildə İran hökmdarı Ağa Məhəmməd şah Qacarın Şuşaya basqını zamanı qala divarlarına atılmiş top mərmisi qanlı-qadalı illəri xatırladırdı. Şuşanın müasir həyatına, şuşalıların sovet hakimiyyəti uğrunda mübarizəsinə, Böyük Vətən müharibəsindəki qəhrəmanlığına həsr olunmmuş stendlər də böyük maraq doğururdu. Ümumiyyətlə, muzeyə tamaşa edərkən Şuşanın keçməkeşli həyatı göz önündə canlanır, şanlı keçmişi haqqında zəngin təəssürat yaranmasına səbəb olurdu.

30 il düşmən tapdağı altında olan Azərbaycanın mədəniyyət incisi Şuşada hər daşın, hər məkanın tarixi özəlliyi var. Hərəsi özlüyündə bir incidir. Şuşa bu incilərin vəhdəti, düzümüdür. Bu şəhərin hər küncü-bucağı əziz görünür, mədəniyyət abidələri, muzeylər dağılmış olsalar da, öz əzəmətlərini qoruyub saxlayırlar.

Şuşa bu gün azaddır. Şuşanın tarixini yaşadan Tarix-Diyarşünaslıq muzeyi bərpa olunacaq və tarixi-mədəni irsin qoruyucusu kimi öz qapılarını yenə də ziyarətçilərin üzünə açacaqdır.



# “Uşaqların yaxın dostu” Zahid Xəlil

80



Müəllim, alim, yazıçı, şair, redaktor kimi milli ədəbiyyatımıza hərtərəfli xidmət edən Zahid Xəlil bu gün də uşaqları vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyə etmək üçün yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına həsr etmişdir. 1990-cı illərdə torpaqlarımız işğal olunarkən "Vətən, mənə oğul demə" yazan Zahid Xəlil qələmi 2020-ci ilin şanlı zəfərindən sonra "Dəmir Yumruq Dastanı" nı yazaraq balalarımıza qələbə dastanını poetik dillə təqdim etdi.

Kiçikdən-böyüyə, hər kəsin sevimlisi Zahid Xəlil 80 yaşını haqlasa da, bu gün də öz yaradıcılığı üzərində yorulmadan çalışır, müasir uşaq ədəbiyyatındakı problemlərin həlli üzərində düşünür və gələcəkdə bu ədəbiyyatın yeni istiqamətdə inkişafı üçün orijinal fikirlər irəli sürür.

Azərbaycan mədəniyyətinin incisi, dayağı, müəllimi, nur üzlü, xoş sözlü Zahid Xəlil! Gözünüz nurlu, qələminiz iti, canınız sağlam olsun...

## ŞUŞA-XONÇA ŞƏHƏR

Şuşa şəhərini yaxşı təsəvvür etmək istəsəniz gərək sizə əvvəlcə xonça haqqında danışım. Xalqımızın qədim bir adəti var: qohumların və dostların toyuna xonça aparırlar. İri bir sininin içinə şirniyyat doldurub üstünə qırmızı yaylıq örtürlər. Sonra onu başlarından da bir az yuxarı qaldırıb toyda süzərlər və xonçanı bəylə gəlinin otağına apararlar. Əgər yolunuz Şuşaya düşsə, hələ ora 10-15 kilometr qalmış qədim Əsgəran qalasından baxsanız görərsiniz ki, dağlar şəhəri xonça kimi yuxarı qaldırıb. Elə bil dağlar bu şəhərin sakinlərinin nə qədər xoşbəxt olduğunu bütün dünyaya göstərmək istəyir. Şəhər o qədər hündürdür ki, sanki ildırımlar adamın ayağının altından çaxır. Adamlar burada doğrudan da xoşbəxtdir. Hər addımında dünyanın bir gözəlliyi olan bu şəhərdə o qədər yeraltı sular, təmiz hava var ki, böyük Vətənimizin hər yerindən bura adamlar axışıb dincəlməyə gəlirdilər.

## ŞUŞANIN UŞAQLARI

Nəhəng çiçəyə bənzər
Şuşanın uşaqları,
Cıdır düzündə gəzər
Şuşanın uşaqları.
Oğlanlar körpə tərlan
Qızlar ağ qağayıdı.
Qayalar dərələrdən
Çıxan qonur ayıdı.
Şuşanı xonça kimi
Göyə qaldırıb dağlar
O xonçanın içində
Noğul-noğul uşaqlar.
Heç yerdə belə güclü
Görməmişəm dağları.
Şuşanı qaldırıb ki,
Dünyanın hər yerindən
Görsünlər uşaqları.










## DƏMİR YUMRUQ

"Dəmir yumruq" - bu gözəl söz
El-obanın dilindədir.
Dəmir yumruq dəmir kimi
Bir kişinin əlindədir.

Dəmir yumruq beş barmaqdır,
Amma böyük bir ölkədir.
Cəsarətdir, şücaətdir.
Nə tərəddüd, nə"bəlkə"dir.

O anlatdı kimin çuxur,
Kimlərin dağ olduğunu.
Kimin nahaq olduğunu,
Kimlərin haqq olduğunu.

Hamı gördü həqiqəti,
O ədalət timsalıdır!
Düşmənlərin gözlərində
Bir fəlakət timsalıdır!

O anlatdı Yer üzünə,
Məğlub nədir, zəfər nədir.
O, adi bir yumruq deyil,
Həyatdakı möcüzədir.

Dəmir kimi, polad kimi
Birləşdirdi insanları.
İlin payız günlərinə,
O qaytardı ilk baharı.

Dəmir yumruq möcüzədir,
Sağdan vurdu, soldan keçdi,
Düşmən əsdi qabağında,
Dağdan vurdu, yaldan keçdi.

Yorulmadı, usanmadı,
Heç dərmədi nəfəsini.
Dəmir Yumruq gedib tutdu
Qarabağın zirvəsini.

O yandırdı Qarabağda
Elin sönmüş çırağını.
Yağmalanmış torpağıma
Taxdı zəfər bayrağını.

Haqqı nahaq etmişdilər,
O qaldırdı haqq səsini.
Onun polad iradəsi
Titrətdi Yer kürəsini.

Dəmir Yumruq- döyüşlərdə
Tarix yazan o sarsılmaz,
O qüdrətli barmaqlara,
Alqış, alqış, deyəcəyəm!

Gəlin birlikdə oxuyaq




# «Забытая кукла» в памяти фотоаппарата

*Отрывок из повести*

Мелисса провела всю ночь на скамейке. После Тоту сюда садился только один человек. Мужчина с широкополой шляпой на голове. Вначале он не обратил на нее внимания. Широко разведя руки, уперся ими в края скамейки. Втянул морской воздух в легкие. Потом, взяв в руки висевший на шее фотоаппарат, сделал несколько снимков. Вдруг неожиданно он заметил Мелиссу. С интересом стал разглядывать ее:

– Кажется, тебя здесь забыли?! Ну что ж. Подыши полной грудью воздухом. Но только имей в виду, что люди ненадежны. На них полагаться нельзя. Может, и вовсе не придут за тобой. По лицу видно, что жизнь не очень баловала тебя. Что поделаешь, каждый живет как может. Вот видишь этот фотоаппарат? Знаешь, сколько человеческих изображений в его памяти? Каждый из них – целый мир. У каждого своя правда, своя ложь.. Постой, сейчас я сфотографирую и тебя. Не стану врать, таких, как ты, не было... Совсем не было...

Мужчина направил объектив фотоаппарата в ее сторону. Сделал несколько снимков. Потом посмотрел на снятые изображения. Пробормотал про себя: «Хмм... отлично. Такого снимка у меня точно не было. На фотовыставке так и напишу – «Забытая кукла». Потом встал, собираясь уходить. Уходя поднял и усадил Мелиссу:

– Вот и все добро, которое я мог для тебя сделать, милая. Прощай... – бросил он напоследок.

Шум от мчавшихся на большой скорости машин постепенно начал утихать. На небе появилась луна. Корабли следом друг за другом начали причаливать к пристани. Мелисса с интересом смотрела на корабли. Два белых корабля стояли бок о бок. У одного из них на борту были изображены черно-белые клавиши, как на пианино. «Интересно, почему корабль украсили такими клавишами пианино?» – подумала Мелисса. Но ответа не нашла. В этой жизни было столько вопросов, на которые она не находила ответа. На этих белых кораблях люди не спали. Они работали, двигались, о чем-то говорили. Мелисса опечалилась. Ей так хотелось на одном из этих белых кораблей, бороздящих океаны, уплыть далеко-далеко отсюда, вновь оказаться в той самой мастерской, полной всяких кукол, кусков ткани, разноцветных ниток и булавок, рядом с той старой кукольщицей, которая, тихо напевая песенку, создала ее. Вновь почувствовать на своем лице, шее, голове нежное прикосновение ее рук, целыми днями беззаботно спать, жить рядом с ней, подальше от всех опасностей и тревог, радоваться жизни. Мелисса плакала. Эта одинокая кукла, беззвучно плачущая на берегу тихого, синего моря, все думала и думала о том, какие сюрпризы готовит ей наступающее утро...



# Встреча с Семен хала

– Ты на нее смотри. Кто тебя здесь оставил? А? Ой, да ты вся пропиталась морской сыростью... Холодная как лед.

Мелисса проснулась на шум. Это была добрая женщина средних лет. Поставив метлу и совок у скамейки, она присела рядом с Мелиссой. Стала нежно гладить ее:

– Чья же ты, кукла, а? Кто тебя здесь оставил? Что мне теперь делать, не могу я оставить тебя здесь одну. И забрать не могу. Вдруг хозяин вернется за тобой. Не найдет на этом месте и расстроится...

– Посиди пока здесь. Согреешься немного на солнце. Я займусь своими делами. Вернусь, когда буду уходить домой. Если твой хозяин не заберет тебя, я возьму к себе домой в деревню. Останешься у нас. Ладно?

Забрав метлу и совок, женщина удалилась. До самого вечера Мелисса с нетерпением ждала её возвращения...

... Женщина, как и обещала, вернулась перед уходом домой. Увидев ее, Мелисса очень обрадовалась. Может быть, она никогда так не радовалась. Кажется, женщина тоже была рада тому, что хозяин Мелиссы так и не появился. Она взяла Мелиссу, привела ее в порядок, потом уложила в целлофановый кулек.

– Что делать, – прошептала она чуть слышно. – Как мне оставить тебя здесь одну? Что с того, что кукла, все равно одиночество плохая вещь. Я тебя заберу в такую семью, что сама поразишься. Будешь жить хоть и в бедной семье, но в окружении добрых, отзывчивых людей. Не беспокойся, свой хлеб мы зарабатываем честным трудом.

Мелисса успокоилась. Это спокойствие говорило ей об избавлении от пережитых ею за все эти месяцы жизненных невзгод...

– Меня зовут Семен, – добавила женщина. Знаешь, что означает «семен»? Это название цветка, похожего на тюльпан. Но мельче тюльпана и светло-оранжевого цвета. И я полюбила свое имя. Только раз в жизни мне довелось увидеть этот цветок. Его мне показал дедушка. Мы ездили в селение Хыналыг. Он рос на отвесных скалах вдоль дороги, ведущей в горы. Он мелко дрожал. Я так и запомнила его. Дрожащий нежный цветок. Судьба моя тоже оказалась похожей на это имя. Жила словно среди каменистых скал, пробираясь через трудности и невзгоды жизни. Хваталась за любую работу. Мне не суждено было жить во дворцах, устланных шелковыми коврами. Но я никогда не унывала. Была довольна жизнью. Дарила свою любовь окружающим. Вот, имею чудесных детей, скромное, теплое гнездо – свой дом. Что еще нужно человеку в этом мире. Разве не так?

Мелисса, лежа ничком в целлофановом кульке, глубоко вздохнула, с нетерпением ожидая встречи с семьей, куда она направлялась...

*Севиндж Нуругызы*

# YENİ KİTABLAR BİZİM RƏFLƏRİMİZDƏ






Kitaba müxtəlif şairlərin X.Natəvana həsr etdikləri şeirlərdən nümunələr, görkəmli heykəltəraş və rəssamların yaratdıqları heykəl və tabloların reproduksiyaları da daxil edilmişdir.




Roman müharibəyə nifrətlə, dinc həyat arzulayan insanlara yazılıb.




Bu kitab ömrünün 27 ilini əyləncə mərkəzindəki kiçik qəfəsdə keçirən Ayvan adlı qorillanın bala fil Rubinin həyatını qutarmaq üçün mübarizəsindən bəhs edir.




Bu kitabda dostluq, səmimilik, özünəinam, böyüyə hörmət, heyvanlara sevgi kimi insani dəyərləri aşılayan hekayələr toplanıb.







Göylərə imzasını atan ixtiraçı Səlcuq Bayraqdar adlı kitabımız uşaq ədəbiyyatı sadəliyi ilə sizə, yerli və milli pilotsuz uçuş aparatlarının inkişafına rəhbərlik edən Səlcuq Bayraqdarın elmi fəaliyyətlərindən və təşəbbüskar tədqiqatlarından bəhs edir.






Kitabda "Həkimlərin sultanı" kimi tanınan İbn Sinanın elmi fəaliyyətlərinə və ixtiralarına şahid olacaqsınız.




Kitabda Vətən müharibəsində misilsiz qəhrəmanlıq nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan, adlarını tarixə əbədi həkk edənlər haqqında məlumat verilir.




Bu kitab Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr edilmişdir. Əsərdə Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns"ün fəaliyyətindən də danışılır.




Каждая страница этой книги отражает частичку нашей памяти о Шуше, здесь речь пойдет о Шуше и шушинцах, основных этапах истории Шуши.




Qarlı gündə dərsə gedərkən yolda canavar balası tapan Mariya adlı qızın başına gələnlərdən bəhs edən və uşaqlara təbiətə sevgini təbliğ edən kitabdır.

4-12 yaş arası minlərlə uşağın ən çox cavab almaq istədiyi suallara tanınmış şəxsiyyətlərin cavabları əks etdirilib.




PROF.DR.ƏZİZ SANCARI daha yaxından tanımaq üçün həyacanlı bir zaman səyahətinə çıxmağa hazırsınız?




Romanda ABŞ-da baş verən vətəndaş müharibəsindən sonra işsiz qalan "Topçular klubu" üzvlərinin qeyri-adi arzusundan söhbət açılır.




Londandakı "Reform" adlı klubun üzvü Fileas Foq dostları ilə dünyanı 80 gün ərzində dövr edəcəyinə dair mərc gəlir və bununla da heyrətamiz bir hekayə başlayır.




Məşhur alim öyrənir ki, Yerin mərkəzinə qədər uzanan vulkanik dəliklər mövcuddur. Bu səyahət zamanı ekspedisiya iştirakçıları müxtəlif hadisələrlə qarşılaşırlar.




Əsərdə ata-anasını vaxtsız itirən qızcığazın başına gələn bir-birindən maraqlı hadisələr sadə, oxunaqlı dillə təsvir olunub.



# Qəhrəmanlarımızı tanıyaq və tanıdaq!

Şəhidlik zirvəsinə ucalan Murad Nağıyev

"Azadlıq. İstər acı olsun, istər şirin. Yalnız o idi məni döyüşdən döyüşə aparan. Ölüm isə mənim son silahımdır". Babəkin dediyi bu sözlər insanın yaşadığı dəyər, ideologiya uğrunda ölümü gözə almasının mənalı təsviridir. Məhz buna görə qəhrəmanlar ölümün gözünə dik baxa bilirlər. Çünki uğrunda öldükləri səbəblər həm də onları yaşadır.

Xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətənimizi darda qoymayıblar. Onlar yadelli düşmənə qarşı son damla qanlarına qədər vuruşub, doğma diyarımızın istiqlalı, ölkəmizin müstəqilliyi və azadlığı yolunda şəhidlik zirvəsinə ucalıblar. Xalqımız da haqlı olaraq daima onlarla öyünür, əbədi olaraq qəlblərində yaşadırlar. Vətənimizin mənafeyini hər şeydən üstün tutan igid oğullarımızın keçdiyi döyüş yolu hamımız üçün örnəkdir. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmır. Hər biri düşməni məhv etmək arzusu ilə alışıb yanır. Tank komandiri, şəhid leytenant, şair Murad Nağıyev "Generaldan da üstün şəhiddir", -deyirdi.

Murad Nağıyev İstanbulda Kuleli Hərbi Liseyini 2015-ci ildə uğurla bitirib və Ankarada Quru Qoşunları Məktəbinə daxil olub. 2016-cı ildə Azərbaycana qayıdıb və təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) davam etdirib. 2020-ci ildə tank bölmə, hissə və birləşmələrin döyüşə tətbiqi ixtisası üzrə məzun olub. 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl istiqamətlərindəki döyüşlərdə vuruşub. Müqəddəs amal uğrunda şəhid olmaqla əbədiyyətə qovuşan, şəhidlik zirvəsinə ucalan Murad Nağıyev kimi qəhrəmanlarımız davamçıları üçün nümunə, örnəkdir.

Döyüşlərdə mənfur düşmənə ağır zərbə vuran, layiqli dərs verən Murad qəhrəmanlıq salnaməsinə adlnı yazmaqla Vətənin bölünməzliyinə imza atdı, üçrəngli bayrağımızın və uğrunda qurban getdiyi torpağımızın müqəddəsliyini qorudu. Qorudu ki, Azərbaycanın müstəqilliyi əbədi olsun. Dünya dövlətləri arasında sayılıb-seçilsin. Adı daim yüksəklərdə səslənsin. Yalnız bu yolda canından keçməyi bacaran qəhrəmanlar yetirən xalqın şəhidi olur. Azərbaycan yenilməz, mübariz xalq olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanəti ilə də təsdiqləyir.

Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Murad Nağıyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

"Təhsil" nəşriyyatında nəşr olunan "Murad" adlı kitabın tərtibçisi Banu Hümbətli, Sərxan Nağıyev, redaktoru isə İbrahim İlyaslıdır. Bu kitab şəhid Murad Nağıyev haqqındadır və onun keçdiyi həyat məktəbinin yollarından bəhs edir. Onun necə cəsarətli, mərd, Vətənini sevən, onun uğrunda ölümün gözünə dik baxan bir gənc olması göstərilib.

Bu yolun fədailəri olan insanlar həmişə minnətdarlıqla anılacaqlar. Onlar haqqında cild-cild kitablar yazılacaq, filmlər çəkiləcək, musiqilər bəstələnəcək.







Həyata başlayarkən sanki biz itirmiş başlamışıq. Sanki gələcək xəyal-larımızı olmayacaq bir gerçəklik kimi yaşamışıq. Hər yıxıldığımız xəyallara özümüzdən parçalar əlavə etmişik və hər yıxılan xəyalımızla öz parçalarımızı məhv etmişik. Birazda batmışıq hər səfərində. Ancaq heç bir zaman yaşadıqlarımızdan dərs çıxarmağı bacarmamışıq. Hər səfə-rində inanılmaz bir ümidlə baxmışıq həyata. Ancaq ümidlərimiz bir ulduz tək sönəndən sonra yatdığımız şirin yuxudan acı şəkildə oyanmışıq. Amma çox şirin gələn yuxumuzu başqa bir ulduzda yaşa-mağa çalışmışıq. Sanki o ulduzlar bir-birilə yarışırmışcasına əlimizdən sürüşüb çıxırlar. Biz o ulduzlarımızı öz qaranlıq səmamızda saxlamağı bacara bilməmişik.

Qaranlıq səmamın ulduzu idi
Parlayan sönməyən saf xəyallarım
Keçmiş günlərimin məlhəmi idi
Qaranlıq dünyada boş xəyallarım.

Muradın qələmindən

# Vatan uğruna

14 yaşında giydik üniformayı cılız bedenlerimize,
Gençliğimizi harcadık Vatan uğruna.
Ama hiçbir zaman keşke demezik biz,
Siz sıcak yataklarınızda uyuyun diye.
Bakmayın gülüp eğlendiğimize.
Siz gezip tozarken,
Biz ayağımız yara-bere içinde eğitim yaptık.
Siz sevgilinizle müziğin ritminde kendinizi kaybederken,
Biz düdük sesiyle kollarımız parçalanana kadar
"Vatan sağolsun"! diyerek süründük.
Siz alkolden üç kuruşluk insanların kollarına düşerken,
Biz yanı başımızda susuzluktan bir heykel gibi
Yerlere yapışan adamalar gördük.
Siz "aşk" dediniz, biz "Vatan" dedik.
Ne yaptıysak, olmadı,
Kötü olan yine biz olduk.
Olsun, biz yine susar, bir sigara daha yakarız.
Ama şunu asla unutmayın:
Şayet bir gün güneş bizimle doğup, bizimle batmazsa,
Sizin için de artık güneş doğmayacaktır.

Not: Bizi TSK'yı yıpratanlar diye lanse etmeye
çalışanlara ufak bir cevap olur mu bilmem...

İstanbul, Türkiyə
4 fevral 2014







# Divlər sarayı

(ƏFSANƏ)

Bu əfsanə Cəbrayıl rayonunun Dağtumas kəndi yaxınlığındakı “Divlər sarayı” tarixi abidəsi haqqındadır.



Rəssam: Nərmin Abdullayeva

Çox-çox qədim zamanlarda bir oba vardı. Bu obanın insanları xoşbəxt, firavan yaşayırdılar. Onlar tanrının bəxş etdikləri yamyaşıl meşələrdən hər cür qış azuqəsi yığar, ov ovlayar, çaylardan balıq tutardılar. Bu obanın heç bir şeyə ehtiyacı yox idi. Buranın təbiəti, əsrarəngiz mənzərəsi, yaşıllıqları, meşələri öz möhtəşəmliyi ilə insanları valeh edirdi. Sanki ulu yaradan bu obadan heç nəyi əsirgəməmişdi. Yeraltı sərvətləri tükənməz xəzinə olduğu kimi, yerüstü sərvətləri də canlı və zəngin idi.

Bir gün obaya bədbəxtlik üz verdi. Meşənin ən səfalı yerində divlər peyda oldular. Meşəyə üz tutan insanlar onların şikarına çevrildi. Otlağa gedən qoyun sürüləri, mal-qara da onların hədəfi oldu. Bu obada ox atmağı, qılınc çalmağı ilə ad çıxarmış Paşa adlı bir igid vardı. O çox götür-qoy edəndən sonra divləri öldürmək, obasını bu bəladan xilas etmək qərarına gəldi. Amma divlərin öhdəsindən necə gəlmək olardı. Onun nə atdığı oxlar, nə də vurduğu qılınc onlara təsir edə bilməzdi. Paşa qonşu obada yaşayan, hər şeyin əlacını bilən Əli Çələbi adlı pirani qocanın yanına gəlib, ondan məsləhət istədi. Pirani qoca igidə:-“ əvvəlcə Diridağda yaşayan kərgədanı öldürməlisən”- dedi. Sonra kərgədanın iç piyini çıxardıb divlərin mağarasının yaxınlığındakı ağacların başındakı budaqlara elə asmalısan ki, gün düz onların üstünə düşsün, yeddi gün ərzində piy əriyib damcı-damcı torpağa düşəndə torpaqdan gələn qoxu mağaranın ətrafına yayılacaq. Bu qoxunu divlər sevmir, odur ki, onlar mağaranı tərk edib qaçacaqlar. Paşa pirani qocaya təşəkkür edib, altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı, üz tutdu Diridağa. Bəli, Diridağ sanki bir qan çanağı idi. Burada yaşayan kərgədanlar heç də divlərdən geri qalmırdı. Paşa nəyin bahasına olursa olsun kərgədanlardan birini öldürməli idi. İki gün Diridağa onların nəriltisindən yaxınlaşa bilmədi, axırda qulaqlarına əski tıxadı ki, vahiməli səsləri duymasın. Bir az uzaqda rahat bir yer seçdi, yaxınlaşmaqda olan kərgədanı düz ürəyindən nişan aldı. Üçüncü oxdan sonra kərgədan tir-tap yerə sərildi. Dan yeri söküləndə Paşa kərgədanın qarnın yırtıb iç piyini çıxartdı, bir torbaya qoyub, öz obasına tərəf üz tutdu. Gün təzəcə doğmuşdu. Paşa divlərin yaşadığı mağaranın yaxınlığındakı ağaclara çıxıb piydən kəsib, budaqlardan asdı. Beləcə mağara ətrafındakı ağaclardakı piylər qızmar günün şəfəqləri altında əriməyə başladılar. İgid uzaqdan divlərə göz qoyurdu. Divlər mağaradan çıxan kimi “Adam-badam iysi gəlmir? Yağlı badam iysi gəlmir? Bəs bu nə iydir belə? ”- deyib qaçmağa başladılar. Paşa iki gün ağacda gözlədi. Divlər tamam yox olandan sonra mağaraya yaxınlaşdı, yavaşca içəri girdi. Mağarada bir dənə də olsun div qalmamışdı. Amma mağaranın içində çoxlu qızıl-gümüş, ləl, cəvahirat vardı. Divlər yığdıqları bütün qənimətlərini bura daşımışdılar. Paşa obaya dönüb igidləri başına yığdı, divlərin xəzinəsini atlara yükləyib kəndə döndülər. Xəzinədəki qızıl, gümüş, ləl cəvahiratı obada yaşayan insanlara payladılar. Oba yenə də firavan həyat sürməyə başladı. Obanın insanları bu mağaranı “Divlər sarayı” adlandırdı, çünki bu qədər xəzinə yalnız şah saraylarında ola bilərdi.

**Zahirə Dadaşova**

# Mən Şuşanı çəkirəm

## 201 saylı məktəb
## "Palitra Art" studiya


İsmayılsoy İnci
AZAD ŞUŞA


Soloryeva Anastasiya
İGİD ƏSGƏR


Məmmədli Ramin
YUXARI GÖVHƏRAĞA MƏSCİDİ


Babayeva Nuray
CIDIR DÜZÜNDƏ BAHAR


Mürsəliyev Yusif
ƏSGƏR SALAMI


Abdullayeva Aydan
ZƏFƏR YÜRÜŞÜ


Mürsəliyev Yusif
VAHİD BAYRAQDAR


Orucova Nəzrin
ŞUŞALI QIZ


Məmmədli Ramin
AND İÇİRƏM


Hüseynova Aynişan
YUXARI GÖVHƏRAĞA MƏSCİDİ


Sadıxlı Amin
İRƏLİ

By Sally Grindley

# PETER'S PLACE




This was Peter's place.

All along the wind-torn beaches, all the way up the ravaged cliff face, this ruthless land's end was full of life.

Guillemots, shags, kittiwakes, eider ducks, long-tailed ducks, screeched and squawked and gossiped to each other, while in the turbulent sea below, seals and otters bobbed and weaved and played and feasted on the sea's riches.

Some came there to have their young. For others it was home.

They did not notice the distant procession of tankers. They were safe in their haven.

But it was Peter's place too. This was where he came to skim stones across the wave tops. This was where he came to search for crabs among rock pools. This was where he came to throw bread for the ducks and fish for the seals.

The eider ducks were Peter's favourites. They knew his call. They were not afraid of him. They knew this was his place too. He brought them food, and they waddled over to greet him, fighting to be first, though Peter made sure that none of them ever missed out.

But the time came when a passing tanker drew too close. Too close for the comfort of the playful seals; too close for the comfort of the cooing eiders; too close to miss the rocks that lay just below the treacherous tide.





Too close to Peter's place.

The scream of tons of metal smashing onto the rocks alerted the nearby farmers and jolted Peter from his sleep. They ran to the cliff edge and watched in horror as the stricken tanker broke its back.

In fear for their lives, the men on board were winched away, leaving the tanker to fight its own battle. From deep inside its belly a foul-smelling blackness spread into the night.

When morning came, the blackness was everywhere. The waves frothed black, the once silver sands oozed black, the jagged rocks were covered in black slime that filled every crevice.

Peter scrambled down the cliff and stood where he had stood so often before.

A young seal, covered in oil, bobbed in the sea, its huge eyes begging for help.

Every new wave that crashed onto the shore spewed more and more bodies out, and left them all over Peter's place like mounds of unwanted rubbish.

A guillemot furiously plucked at its matted feathers, poisoning itself at every attempt to clean off the slime that prevented it from flying. An eider duck sat motionless and terribly weakened by its struggle to move.

Peter walked quietly over to it. He didn't want to frighten it. It was frightened enough. But the duck knew his call.

When Peter picked it up, the duck knew he wanted to help. It rested its head against Peter's chest while Peter cradled it in his arms, his silent tears carried away by the wind.

Then gentle hands took Peter's duck from him and carried it away to be cleaned and looked after. He heard his father urging him to join in with the rescue.

For many days he helped with the hosing and scrubbed away the sticky slime that covered every rock and filled every gully of his childhood haunt.

Peter's place battled to survive.

This is Peter's place now. Sometimes, when his duck comes waddling over to take bread from his hands, Peter marvels at its survival and smiles at its family sliding and tripping over the rocks.

And, sometimes, when he picks up a stone to hurl it across the tops of the waves, his hands are left sticky and black and the memories come rushing back.

For, not far below the surface, in little nooks and crannies, between the rocks, under the sand, are ugly black scars that can never be washed away.

But, Peter's place is still Peter's place.

All along the wind-torn beaches, all the way up the ravaged cliff face, this ruthless land's end is full of life.





# Rənglər haqqında

Yağışdan sonra dan yeri ağaranda, ya da alatoran çağı, arxası Günəşə dayanıb baxsan, üstəlik bəxtin də gətirsə, yeddi rəngin doğurduğu heyrətamiz bir gözəlliyi – göyqurşağını görərsən.

“Qarı Nənə Səksən Yaşında Mücrü Gəzdirir Başında”. Bu məzəli deyim göyqurşağının rəng sırasını yadda saxladır: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy və bənövşəyi.
Üç əsas rəng var: qırmızı, sarı və göy

O rənglər ki, iki və ya daha artıq rəngin qarışığından alınır, belə rənglərə qarışıq rənglər deyilir. Bənövşəyi, yaşıl və narıncı qarışıq rənglərdir.



**Dünyanı rəngsiz təsəvvür etmək mümkün deyildir.
Ətraf aləmdə o qədər müxtəlif rəng var ki!..**



Rənglər isti və soyuq olur. İsti rənglər bizə istini, günəşi, isti səhranı, alovu xatırladır: qara, qırmızı, sarı, narıncı, çəhrayı, qəhvəyi. Soyuq rənglər isə bizə soyuğu, qışı, meşəni, qaranlıq gecəni, dənizi və səmanı xatırladır: ağ, mavi, göy, yaşıl, bənövşəyi.

Rənglərin insan psixologiyasına təsiri çoxdan bəllidir. Rənglərin ən çox işləndiyi yer isə insanın paltarıdır. Özümüzə paltar seçərkən biz yalnız onun görünüşünə diqqət etmirik.

Əsas nəzər yetirilməli olan amillərdən biri və demək olar ki, əsası onun rəngidir. Unutmayın ki, rənglər həm insanın əhval ruhiyyəsini qaldıra, həm də ruh düşkünlüyü yarada bilər. Rənglərin mənalarını bilməklə onları seçmək daha asan olar.

**Əziz uşaqlar!
Gəlin, nağılların dili ilə rəngləri bir daha tanıyaq.**



Qırmızı rəng. Qədim dönəmlərdə finikiyalılar bəzi dəniz ilbizlərindən qırmızı boya hazırlayırdılar. Bir funt (454 qr) boya almaq üçün min ilbiz lazım gəlirdi. Qırmızı– spektral və təməl rəngdir. Bitkiləri qırmızı rəngə boyayan Antosian adlı piqmentdir. Yəqin ki, Qırmızı dəniz haqqında da eşitmisən. Bəs Aldədə necə, sənə tanış gəlir? Od adamı, al qırmızı Aldədə, çox qədimlərin Azərbaycan nağılıdır...

# ALDƏDƏ

(Azərbaycan nağılı)

... Ağrıdağdan üzübəri baxanda, üç tonqal sayrışır: biri Alvız dağında, biri Savalanda, biri də Şahdağda. El arasında deyirlər ki, bunlar Aldədənin qaladığı tonqallardır. Qorçular qorçusu Aldədənin!..

... Və deyirlər ki, süsən-sünbül qızardıqca, xan Araz dəli Kürə qovuşduqca, Aldədə varlığını sürdürür...

Çox-çox qədimlərdə Aldədənin sorağı Xəlifəyə çatır: Qırmızı sarıqlı, zoğalı çomaqlı və moruğu papaqlı bir qoca peyda olub. El yanında bir sözünü iki, bütövünü tikə eyləyən yox. Nə qədər ki, Aldədə var, Od yurdundan əlini üz!..

Xəlifəyə bu sözləri deməkmi olardı? Gündoğandan –günbatana neçə-neçə hökmdarı diz çökdürən, güneydən-quzeyə hər dağa, hər daşa adını yazdıran qosqocaman bir səltənətin başçısı qırmızıya bürünüb odla oynayan bir qocadanmı qorxacaqdı? Bunu düşünən Xəlifə allanıb-ballanır, gözünü qan tutur. Üç ərəbi yanına çağırıb əmr edir ki, gedib, Aldədəni tapıb, öz odunda yandırsınlar.

Üç ərəb dəvə minib ata çatır, at minib Od yurduna çatır və düşürlər Aldədənin izinə. Allı dərələrdə sürünüb, güllü yamaclara dırmaşıb, yetişirlər Haça Qayaya.

Aman Tanrım, dağ ola, üstündə bağ ola, üstündə də bağ ola. Dümağ qarın içində qırmızı lalələr və sapsağlam, qıpqırmızı Aldədə!..

Üç ərəb qorxudan və soyuqdan üşüyə-üşüyə, birtəhər Aldədəni tanıyıb deyirlər:

- Aldədə, bir oçaq çat qızınaq. Yolda yamanca üşümüşük!..

Aldədə geri qanqılmadan ürpəşə-ürpəşə zoğalı çomağını yerə vurur. O dəqiqə yerdən od püskürür və üç ərəbin üz-gözü, saç-saqqalı ütülür.

Bir azdan üç ərəb özünə gəlib yemək istəyir. Biri heybəsindən ət çıxarır, biri yaqut saplı qılıncını, biri də qırmızı nizəsini. Aldədə saymazca, gah qırmızı sarığını açıb belinə dolayır, gah da zoğalı çomağına tumar çəkirdi.

Birinci ərəb heybədən çıxardığı əti ortaya qoyub deyir:

Aldədənin nə yeməli əti var. Yesəydik, qırmızı sarğısı mənə qalardı.

İkinci ərəb yaqut saplı qılıncıyla əti tikə-tikə doğrayıb deyir:

Aldədənin nə üzüləsi başı var. Üzsəydik, moruğu papağı mənə qalardı.

Üçüncü ərəb ət tikələrini nizəyə düzüb, ağzı sulana-sulana deyir:

Aldədəni də şişə keçirib bişirsək, zoğalı çomağı mənə qalardı.

Üç ərəb ocaqda kabab çəkib yeyəndən sonra kefləri lap durulur. Başlayırlar şaqqanaq çəkib mahnı oxumağa:

Nə qırmızı əti var Aldədənin,

Qıpqırmızı biti var Aldədənin....

Sonra da Aldədəni itələyib yanar ocağa salır və sevincək olub yatırlar.

... Şimşək şaqqıltısına oyanarkən, üç ərəb görür ki, nə şimşək, sən demə Aldədə gülürmüş... Qırmızı sarığı belində, moruğu papağı başında və zoğalı çomağı əlində. Özü də sapsağlam-qıpqırmızı!.. Nəfəsindən od püskürən Aldədə "Od odu yandırmaz!" deyib birinci ərəbə, "Başqasından torpaq umma!" söyləyib ikinci ərəbə, "Bütövü paralamaq olmaz!" hayqırıb üçüncü ərəbə çomaq çəkir.

Çomaq nə çomaq! Ərəbin biri gedib Alvız dağına, biri Savalan dağına, biri də Şahdağa düşür. O düşən hələ orda qalıblar və gəlib-gedənə Aldədənin sözlərini çatdırırlar.

Nağıl xoşunuza gəldi? Bəs siz hansı rəngi xoşlayırsınız?



Dünyadakı məktəblərin heç biri digə-
rinə bənzəmir, onları özünəməxsus edən
müəllimlər və şagirdlərdir.



# İncəhörümün səyahəti






*Tanış olun, bu Luçiadır. O bizə İspaniya məktəbinin özəllikləri haqqında məlumat verəcək. Uşaqlar! Bu dəfə məni İspaniyadan məktəblilər dəvət etdilər! Gəlin, mənimlə uçaq, görək bu ölkədə uşaqlar necə yaşayır, oxuyurlar!*

## MƏKTƏBLİ FORMASI

Aşağı sinif şagirdləri paltarlarının üstünə geyindikləri yüngül xalatlarda dərsə gedirlər, yuxarı sinif şagirdləri isə adi gündəlik geyimlərə üstünlük verirlər. Məcburi geyim kodu yalnız özəl məktəblərdə olur.






## BİR DƏRS NƏ QƏDƏRDİR?

Uşaqlar 40 və ya 45 dəqiqə müəllimə qulaq asırlar. Bir dərsin nə qədər davam edəcəyinə məktəb direktoru qərar verir.





## DƏRS CƏDVƏLİ

Tədris ili sentyabrın ortalarında başlayır.
İspan məktəblərində dərs günü təxminən səhər saat 9-da başlayır, dərslər qısa fasilələrlə 1,5 saat davam edir.



## İSPAN DELİKATESLƏRİ

İspaniya məktəblərində nahar vaxtı müxtəlif yeməklərdən - paella, lazanya, tortilla və hər kəsin sevdiyi kartof əzməsindən dadmaq olar.



İspaniya məktəbləri bu sırada daha müstəqildir. Belə ki, məktəbdə tədris olunan fənlər üzrə "hamı üçün təsdiq edilmiş vahid dərslik" yoxdur. Hər bir məktəb rəhbərinin və müəllimlər şurasının öz seçim etmək hüququ var.

2015-ci ildə "Vogue" jurnalı ispan məktəbli formasını dünyanın ən dəbli geyimlərindən biri kimi tanıdı.

## BAĞÇA İLƏ TANIŞ OLMAQ

İspan məktəblilərinin heyrətamiz bir fənni var – bağçaçılıq. Bu dərslərdə uşaqlar bitkilərə qulluq etməyi, üzüm sortlarını öyrənir və özləri tərəvəz əkməyə çalışırlar.



# UZUN AYAQLI
## Leyləklər



Baharın ilıq günlərində çərpələng uçurarkən səmada gördüyümüz minlərlə ağ böyük quşlar leyləklərdir. Leyləklər 1-1.5 m hündürlükdə, böyük dümağ qanadları, uzun qara quyruqları olan iri, köçəri quşlardır. Dimdiklərinin və uzun ayaqlarının qırmızı olması leyləklərə təbii olaraq sevimli bir ovqat qazandırır.

Leyləklərin ən çox diqqət çəkən xüsusiyyətləri uçuş formalarıdır. Dimdiklərini irəli, ayaqlarını geriyə doğru uzadaraq uçurlar. Leyləklərin bu estetik uçuş formaları onlara havanı yararaq daha sürətlə uça bilmə imkanı yaradır.



***Leyləklər sakit və ehtiyatla tərpənən quşlardır. Onlar bir-biri ilə dimdiklərini şaqqıldatmaqla “danışırlar”. Ağ leyləklərin yaxın qohumları olan qara leyləklər yalnız sıx meşələrdə yaşayırlar. Sayları azdır. Qara leyləklər mühafizə edilir. Onların adları “Qırmızı Kitab”a salınıb.***

Leyləklər hər il böyük dəstə halında köç edərlər. Bunun səbəbi soyuq bölgələrdə yaşaya bilməmələridir. Vətənimizə köç edən leyləklər bizə isti yaz günlərinin müjdəsini verərlər.



**DOSTLAR,** yəqin ki, leyləklər haqqında nağıl da eşitmişiniz, mahnı da, şeir də. Bu böyük ağ quş kəndlərin yaxınlığında çəmənlikdə gəzişir, bəzən yuvasını lap kənd evlərinin damında qurur. Bu quşa **HACILEYLƏK** də deyirlər. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da müqəddəs quş hesab edilir.

**Quşlar Azərbaycanın sərvətidir!**
**Onları qorumaq və daha da artırmaq üçün bütün imkanlardan istifadə etmək lazımdır.**

Daha təəccüblü olan aradan bir il keçsə də yaz gələndə leyləklərin minlərlə kilometr yolu geri qayıdıb köhnə yuvalarını tapmalarıdır.

Bəli! Səhv oxumadınız...

Leyləklər bir il əvvəl qurduqları yuvalarını sanki əllərində bir kompas varmış kimi, tapıb təkrar oraya yerləşirlər.





Çəlik qıçlı leyləklər köç edərkən dənizlərin üstündən keçməzlər. Bunun səbəbi yorulduqlarında istirahət edəcəkləri bir quru parçası tapa bilməməkdən ehtiyat etmələridir.



Leyləklər insanlarla çoxdan dostlaşıblar, onlardan qorxmurlar. İnsanlar isə bu dostluğu yüksək qiymətləndirir və səbirsizliklə gözləyirlər ki, leylək onların da damında yuva qursun. Axı belə bir inam var ki, bu gözəl quşlar ev sahiblərinə xoşbəxtlik gətirir. Əgər leylək bir evin damında yuva qurubsa, hər bahar öz köhnə yuvasına qayıdacaq. Yenə də yuvada uzunqıç leylək balaları bütün günü öz ata-analarının ovdan qayıtmasını gözləyəcəkdir. Ata-ana isə növbə ilə öz balalarına yem daşıyacaq. Axı balalar hələ uça bilmirlər, onlar valideynlərinin gətirdikləri qurbağaları, siçanları, kərtənkələləri və başqa cücüləri yeyirlər. Aprelin əvvəlində leyləklər 3-5 ağ yumurta qoyur. Yumurtadan çıxan balalar payıza qədər böyüyüb qüvvətli quşlara çevrilir, sonra isə isti yerlərə uçub gedirlər. İnsanlar isə yenə də hər bahar öz vəfalı dostlarını səbirsizliklə gözləyəcəklər.

**Sizə bir sual: leyləklərin rəqs etdiklərini bilirsinizmi?**



Bəli, sualı doğru anladınız. Erkək leylək və yoldaşı bir yerə gəlincə dimdiklərini tıqqıldadaraq, qanad çırparaq rəqs edərlər. Bu rəqsin ən böyük xüsusiyyəti erkək leyləyin dişinin diqqətini çəkməyə çalışmasıdır. Leyləklərin hardasa bir insan boyunda olduğunu düşünsəniz rəqslərinin nə qədər maraqlı olduğunu gözlərinin qarşısında canlandıra bilərsiniz.

# Pinokkio

Nağıllara səyahət

“Pinokkio” Karlo Kollodinin yazdığı və çox sevilən bir uşaq romanıdır. Romanın qəhrəmanı məharətli bir dülgərin odundan yonub hazırladığı və sonra da övladlığa götürdüyü bir kukladır. Dəcəl və tənbəl olan bu taxta kuklanın səhvləri başına oyun açır. Meşə pərisi Pinokkionu qoruyur. Pəri onun yalan danışmayan, yaxşı bir uşaq olmasını istəyir. Buna görə onu ovsunlayır. Bundan sonra Pinokkio hər dəfə yalan danışanda burnu uzanacaqdı. Dəcəl kukla ha çalışsa da, verdiyi sözün üstündə dura bilmir. Tənbəllikdən hər işin asanəna qaçır, bundan istifadə edən pisniyyət insanlar da onu tez aldadırlar. Bu xasiyyətinə görə də başına çox bəlalar gəlir. Əslində, Pinokkio da başqa dostları kimi həqiqi uşaq olmaq istəyir. Ancaq bunun üçün çalışqan və xeyirxah olmalıdır. Nəhayət, o, başına gələnlərdən dərs alır və əziyyətə qatlaşır. Bundan sonar vəziyyət dəyişir və axırda taxta kukla insan ola bilir.

## Hekayə yazmaq

**Şəklə uyğun qısa hekayə yaza bilərsən?**




*Pinokkio nağılını xatırlayırsınız?*
*Bəlkə də çoxunuz bilmir ki, əsl oğlan olmaq arzusunda olan kiçik bir taxta kuklanın hekayələri Toskanada doğulub.*
*Pinokkio, Danışan Kriket, Mavi Saçlı Pəri və "Buratinonun sərgüzəştləri" filmindəki bütün personajlar Karlo Kollodi təxəllüsü ilə tanınan Florensiyalı yazıçı Karlo Lorenzini tərəfindən icad edilmişdir.*



# Buratino-Pinokkio Muzeyi



Kiçik bir şəhər olan Collodidə məşhur uzunburunlu marionet kuklaya həsr olunmuş çox orijinal "Parco di Pinoccio" yerləşir. Park tamamilə açıq havadadır. Baxımlı bitki örtüyü ilə əhatə olunmuş parkda gəzərkən siz nağılın bütün personajları ilə qarşılaşacaqsınız: Pinokkio, mavi saçlı Pəri, Pişik, Tülkü və ziyarətçiləri virtual olaraq müşayiət edən əsərin bir çox digər personajları. Onlar sizə oxuduğunuz kitabdakı səhnələri bir daha xatırladacaq.

Parkın sehri, əlbəttə ki, bütün uşaqların, böyüklərin qəlbində, yaddaşında və təxəyyülündə hələ də yaşayan Pinokkio haqqında yazılmış nağılın təsiri ilə bağlıdır. Parkdakı Buratino-Pinokkio Muzeyini də mütləq ziyarət edin. 1993-cü ildən fəaliyyət göstərən, 1000-dən çox eksponatı olan Pinokkio Muzeyində ilin istənilən vaxtında Pinokkio ilə bağlı müvəqqəti və daimi təşkil olunmuş sərgilərə baş çəkə bilərsiniz. Muzeydə taxta insanı gündəlik həyatla birləşdirən demək olar ki, hər şey var.

Parkda sizin diqqətinizi çəkə bilən virtual kitabxana da var. Virtual kitabxanada böyük sensor ekranlarda əsərin 1883-cü ildən bəri bütün dillərdə nəşr edilmiş nüsxələrini görmək imkanı əldə edə biləcəksiniz.

Uşaqlar! Collodidəki Pinokkio Parkı, dünyanın ən məşhur əsərlərindən olan - “Pinokkionun macəraları“ndan ilhamlanan möcüzəvi bir şəhərcikdir.









# Tap tapmaca, bil bilməcə!

Tapmacalar və onların həlli, bədənimizin əzələləri kimi daimi məşqə ehtiyacı olan düşünməyimiz üçün çox faydalıdır. Bu məqsədlə də sizə içərisində nə isə gizlədilmiş yeni tapşırığı təklif edirik:







Maralı izləyən pumanı görürsənmi?

























# Həşəratlardan gül kompozisiyası

Zərif çiçək kompozisiyaları həşəratların təsvirlərini dəqiq şəkildə çatdırır. Həşərat şəklində çiçək kompozisiyaları sadəcə heyrətamiz görünür! Sizcə bunlar əsil həşəratların fotolarıdır? Daha yaxından baxın! Heyrətamiz böcəklər və kəpənəklər güllərin saplaq və ləçəklərindən hazırlanmışdır.





**Çiçək ləçəklərini və yarpaqlarını necə saxlamaq olar ki, onlar öz təravətini uzun müddət itirməsin?**